# Sumqayıtın yetirməsi

## Vətəndən uzaqlarda da Vətənlədir

Rəhman ORXAN,
Respublikanın Əməkdar jurnalisti
tel.: (050) 250-07-26
e-mail: rahman_orxan@mail.ru

***Azərbaycanda bir igidin ömrü qədər - 35 il yaşasa da, təbii olaraq onu doğmalarından, yaxın əhatəsində olan adamlardan başqa tanıyan yox idi. Baxmayaraq ki, ali təhsili, işi, işgüzarlığı da vardı, Bakının "beş addımlığında" - Sumqayıtda yaşayırdı və inşaatçı-mühəndis kimi də istedadlı idi, sayılıb-seçilirdi.***

***O, özünü vətənpərvər bir oğul kimi ilk dəfə Vətəndən uzaqlarda - Niderlandda "tapdı". Və xüsusilə diqqətəlayiqdir ki, onu çox keçmədən "gəlmə" olduğu həmin ölkədə də, üstəlik Azərbaycanda da tanıdılar, özü də təzəcə getdiyi diyarda cəmi bir il yaşadıqdan sonra - 2002-ci ildən başlayaraq. Onun işgüzarlığı və bacarığı o yad ölkədə sanki yeni vüsət almış, birdən-birə vulkan kimi "oyanmışdı". Vətənlə bağlı təəssübkeşliyi, mübarizliyi, döyüşkənliyi az qala lava seli kimi ordakı ermənilərin üstünə "axmağa" başlamışdı. Ermənilər onu "göz üstə", diqqətdə saxlamalı olmuşdular.***

...Nəsli-kökü Azərbaycanın ən qədim, dilbər guşələrindən birindən - Qubadlıdan olan Elxan Mirhəşimli bütün Qarabağ od içində olduğu vaxtlarda Vətən uğrunda düşmənlə qəhrəmancasına, mərdliklə vuruşan eloğluları, sonralar Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Əliyar Əliyev, Bəylər Ağayev, Kazımağa Kərimov və digər komandirlərin döyüşçülərinə dayaq olaraq, bacardığı qədər köməklik göstərmişdi (o vaxtlar gəlirli bir sahədə çalışdığından buna imkanı vardı). Sonralar Sumqayıta pənah gətirmiş bir-neçə qaçqın ailəsinə də hər ay əl tuturdu. Yəni ki, dolanışığı da vardı, xətrini əziz tutan qohum-qardaşı, hörmətini saxlayan etibarlı dost-tanışı da. Odur ki, illərlə doğma Qubadlıdan ayrı düşən, o yerlər üçün hər zaman qəlbi göynəyən Elxanın günlərin bir günü hansı həvəs və məqsədlə xaricə köçməsi çoxlarına təəccüblü, anlaşılmaz görünmüşdü...

### Geriyə yol yoxdur!

Elxanın o uzaq, yad diyara ilk səfəri 2001-ci ildə olmuşdu. Etibarını qazandığı tanışlarıından biri onu həvəsləndirərək, Hollandiyaya (o vaxt rəsmi olaraq belə adlanırdı) gedib, orda iş qurmağı, özlərinə yaxşı gün-güzəran düzəldib, sonra qohum-qardaşa da kömək etməyi təklif edir. Bir-neçə ay hazırlıq görərək, heç də asan olmayan hüquqi baryerləri də keçərək, hər ikisi üçün yad olan ölkəyə yola düşürlər. Lakin gözlədiklərinin əksinə olaraq onları nə gül-çiçəklə qarşılayan olur, nə də "süd gölündə üzməyə" aparan. Odur ki, bir müddət Azərbaycandan gedərkən "iş qurmaq üçün" əllərində olan "maya"nı tətbiq etməyə münasib bir yer tapmayaraq, onu tədricən "əritməyə" başlayıb, vəziyyətin yaxşı olacağına ümid bəsləsələr də, hər addımda çətinliklərlə üzləşməli olurlar. Vəziyyətin getgedə ağırlaşdığını görən tanışı iradəsizlik, üzüdönüklük edərək, Elxanı qərib ölkənin ümidinə buraxaraq və ortaq vəsaitlərindən də bir qədər "çırpışdıraraq" xəlvətcə aradan çıxır.

Əslində Niderlanda köçərkən Elxanın məqsədi təkcə ailəsinin dolanışığını təmin etmək, gəlirli biznes qurmaq yox, həm də Azərbaycana daha faydalı olmaq idi. Lakin qərib ölkəyə birlikdə getdiyi həmin tanışının gözlənilməz dönüklüyü, "aradan çıxması" ucbatından ilk əvvəllər özü bir-çox problemlərlə üzləşməli olur. ***Ancaq hər zaman yalnız irəli getməyə cəhd edən, məğlub olmağı xoşlamayan Elxan "suyu süzülə-süzülə" geri qayıtmağı, dost-tanışın yanında xar olmağı, qohum-qardaşın qınağı ilə üzləşməyi özünə sığışdırmayaraq, geri dönməkdənsə, ağır zəhmətə belə qatlaşmaq bahasına olsa da, Hollandiyada qalmağa üstünlük verir. Hər cür çətinliklərə sinə gərməyi bacaran mərd, qeyrətli, hünərli oğullar şəhəri Sumqayıtdan olması, qanına-canına Qubadlının odunun, suyunun, havasının da bir ömrə bəs edəcək qədər hopması ona qətiyyətli, iradəli olmağı təlqin edir.Və əvvəllər də həyatın gözlənilməz "sürprizləri" ilə üzləşmiş, lakin hər zaman öz gücünə tapınan, son dərəcə prinsipial olan Elxan ailəsi ilə birgə ağır günlər keçirsə də, bütün çətinliklərə kişi kimi dözüb, vəziyyətlərinin tədricən düzəlməsinə nail olur. Tanışının naxələf çıxmasına baxmayaraq, o, dili və dini ayrı olan yerli sakinlər arasında özünə yeni, etibarlı tanışlar tapır. Buna isə o, özünün yüksək insani keyfiyyətləri, bacarığı, fərasəti ilə nail olur. Yeni tanışları vəziyyətdən çıxmaq üçün ona həm münasib iş tapmaqda, həm də dil öyrənməkdə köməklik edirlər. Heç zaman çətinliklər qarşısında əyilməyən Elxan artıq üç ildən sonra tam "ayaq üstə durmağı" bacararaq, qərib ölkə cəmiyyətinin bir üzvünə çevrilir.***

Niderland həyatının ilk dövründə yadında daha çox qalan, gözləmədən düşdüyü "burulğan"dan çıxdıqdan bir qədər sonra fəaliyyət yönünün dəyişməsi, özünü başqa bir "burulğan"ın - "siyasət burulğanı"nın içində, diasporumuzun yanında görməsi olmuşdu.









Həyatından bəzi məqamlar. Elxan Mirhəşimli 27 iyun 1966-cı ildə indi erməni işğalında qalmış Qubadlı rayonunda dünyaya gəlib. Sumqayıt şəhərində böyüyüb, 14 və 27 □-li məktəblərdə orta, 1984-1991-ci illərdə isə Azərbaycan Dövlət İnşaat və Memarlıq Universitetində ali təhsil almışdır, inşaatçı-mühəndisdir. İki il sovet ordusunda hərbi xidmət keçmiş və məhz həmin dövrdə erməni-rus şovinizminin, onların hiyləgər həmrəyliklərinin şahidi olmuş, bərkdən-boşdan çıxmışdır.

Ali məktəbdə oxuya-oxuya və sonralar da 8 ildən artıq Sumqayıtın Mənzil-kommunal sistemində çalışmış, öz şəxsi bacarığı, təşəbbüskarlığı sayəsində Çexoslovakiya və Macarıstanla müəyyən ticarət əlaqələri yaratmış, 10 ilə yaxın kiçik bizneslə məşğul olmuş, ailəsinin dolanışıq ehtiyacını ödəməyə çalışmışdır.

***2001-ci ildə ailəsi ilə birgə Niderlanda köçüb. 3 övlad atasıdır. İndi psixoloq olan oğlu Mirələkbər 1991-ci ildə, hüquqşünas qızı Mədinə 1992-ci ildə Sumqayıtda, ailənin sonbeşiyi Aidə isə ölkəmizin Milli Mətbuat günündə - 22 iyulda (2006-cı ildə) Hollandiyada dünyaya gəlmişdir (ona görə, həm də atasının Azərbaycan naminə yorulmaz ictimai-siyasi fəaliyyətindən ruhlanaraq, qarşısına jurnalist olmağı məqsəd qoyub).***

davamı gələn sayımızda